## AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

## Q Ə R A R

№ 032/526

Bakı şəhəri "26" may 2026-cı il

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2024-2025-ci illər üzrə rəsmi məlumatlarına əsasən, İtaliya Respublikasının Sardiniya (Sardegna) regionunda **epizootik hemorragiya** xəstəliyi, Çin Xalq Respublikasının Xizanq (Xizang) muxtar regionunda **xırdabuynuzlu heyvanların taun** xəstəliyi, Yeni Zelandiyanın Kenterberi (Canterbury) regionunda, Albaniya Respublikasının Dürres (Durrës) kantonunda və Polşa Respublikasının Sventokşisk (Świętokrzyskie) inzibati ərazisində isə qeydə alınmış **yüksək patogen quş qripi** xəstəliyi aradan qaldırılıb.

Belə ki, yuxarıda göstərilən ölkələrin həmin inzibati ərazi vahidlərində aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin sadalanan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 13.11.2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

1. ÜHST-nin rəsmi məlumatları və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**Epizootik hemorragiya xəstəliyi üzrə:**

**1.1.** 17.10.2023-cü il tarixli 045/296 nömrəli qərarla İtaliya Respublikasının Sardiniya regionuna tətbiq edilmiş məhdudiyyət.

**Xırdabuynuzlu heyvanların taun xəstəliyi:**

**1.2.** 16.02.2024-cü il tarixli 014/334 nömrəli qərarla Çin Xalq Respublikasının Xizanq muxtar regionuna tətbiq edilmiş məhdudiyyət.

**Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.3.** 03.12.2024-cü il tarixli 076/396 nömrəli qərarla Yeni Zelandiyanın Kenterberi regionuna tətbiq edilmiş məhdudiyyət;

ƏSLİ İLƏ DÜZDÜR Abbasov T.K. 26.05.2026

1.4. 07.03.2025-ci il tarixli 018/424 nömrəli qərarla Albaniya Respublikasının Dürres kantonuna tətbiq edilmiş məhdudiyyət;

1.5. 01.04.2025-ci il tarixli 020/426 nömrəli qərarla Polşa Respublikasının Sventokşisk inzibati ərazisində tətbiq edilmiş məhdudiyyət.

2. Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

3. Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Agentliyin Aparatının Strateji planlaşdırma, koordinasiya və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

5. Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi bu qərarın 1-ci bəndində qeyd olunan yoluxucu heyvan xəstəlikləri üzrə adıçəkilən ölkələrin müvafiq inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması barədə, həmin ərazilərdən baytarlıq nəzarətində olan malların Azərbaycan Respublikasına idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
26.05.2026